Azadlıq şəhidi Səid Səlmasi

(Əvvəli 5-ci səh.)

Səid Səlmasinin şeirləri Əlibəy Hüseynzadə, H.Cavid, A.Şaiq, M.Ə.Sabir, M.H.Qüdsi, M.Ə.Rəsulzadə, Ə.Kamal, Ş.Cəlilzadə, Münir və başqa "Füyuzat" şairləri ilə birgə jurnalın səhifələrində tez-tez çap olunurdu. Onun prinsipləri yüksək qiymətləndirən jurnal redaksiyası onun lirik-romantik "Etmə əsrar!" şeridən sonra ədəbiyyat həvəskarlarına müraciətlə yazırdı: "Ədəbiyyat ilə iştiğal edən şairlərimizin bu şeirdəki hüsni-əda və latafətimodaya diqqət etmələrini rica ediyoruz. Hər gün kəlalavar və bimənə şeylərlə səhayifi-mətbuatımızı qaralamaqdan isə "Füyuzat" jurnalında dərc etdirməyə müvəffəq olan şair ənənəvi Şərq üslubundan daha zəngə poetik novatorluğa həvəs göstərmiş, Avropa və türk romantik poeziyasından nəşət edərək yüksəlmişdir. Genc şairin Azərbaycan poeziyasına gətirdiyi arxitektonik yenilik və estetik prinsipləri yüksək qiymətləndirən jurnal redaksiyası onun romantik "Etmə əsrar!" şeridən sonra ədəbiyyat sahəsindəki müvəffəqiyyətini yazırdı: "Ədəbiyyat ilə iştiğal edən şairlərimizin bu şeirdəki hüsni-əda və latafətimodaya diqqət etmələrini rica ediyoruz. Hər gün kəlalavar və bimənə şeylərlə səhayifi-mətbuatımızı qaralamaqdan isə

İranlılarıq, can veribən nam alarıq biz.
Devada şəhadetlə hamı kam alınıq biz.

Qanilə qılıncdır görünən baydağımızda,
Can qorxusu yoxdur dilimizdə, canımızda,
Her gündə bir şir yatıb torpağımızda,
İranlılarıq, can veribən nam alarıq biz,
Devada şəhadetlə hamı kam alınıq biz.

Xatırladım ki, görkəmli türk şairi Namiq Kamalın "Osmanlılarıq, can veribən nam alırız biz" misralarını özündə əks etdirən mənzuməsi və M.Ə.Sabirin həmin şeirə satirik nəzirəsi bir-biri ilə ideya-bədii cəhətdən bir sıra məqamlarına görə səsləşirlər.

Xalqının mənəvi böyüklüyünə arxalanan Səid 22 yaşında azadlıq uğrunda döyüşdə həlak olsa da, Şəhriyar, Səhənd, Coşqun, Sahir, Əlirza Oqtay, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz, Sabir Rüstəmxanı və başqalarının poeziyasında mənən yenidən doğuldu, çağdaş Azərbaycanın istiqlal uğrunda mübarizə aparanların timsalında yenidən mübarizə sənərlərində göründü.

Ömrünün son dəqiqələrində belə xalqın azad gələcəyinə inamı və həsrətlə baxan Səid Səlmasinin adı unudulmazdır. Bundan 20 il əvvəl şairin 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunda keçirilən elmi sessiya bunu bir daha təsdiq etdi. İndi xoş xatirə kimi yada saldığım həmin sessiyanı giriş sözü ilə açan akademik Mirzə İbrahimovdan sonra şairin ömür yolu və yaradıcılığına dair filologiya elmləri namizədi Zahid Əkbərov məruzə etdi. Azərbaycan EA-nın müxbir üzvü Əziz Mirəhmədov, filologiya elmləri dokturu Qafar Kəndli, filologiya elmləri namizədi Mirabbas Aslanov və Almaz Ağazadə çıxış edərək vətənpərvər şairin həyatı və fəaliyyəti ilə bağlı yeni və dəyərli elmi fikirlər söylədilər. Şair-tərcüməçi Nazim Rizvan onun fars dilindən bir şerini öz tərcüməsində sessiya iştirakçılarına oxudu. Şübhəsiz ki, "Amalımız, əfkarımız iqbali-vətəndir" söyləyən Səid Səlmasinin zəngin ədəbi irsi toplanılıb nəşrə hazırlanacaq və haqqında elmi əsərlər, monoqrafiya və məqalələr yazılacaqdır.

Səid Səlmasini "qardaş" adlandıran Məhəmməd Hadi "Əsri-təcəddüd və iki qüvvə" adlı məqaləsində ona müraciətlə deyirdi:

Namını ehya üçün millət tikər bir abidə,
Neqş olunmuş nami-pakın xatirati-millətə.

Milli tarixin sonraki inkişafı bir daha təsdq etdi ki, "mənim hədəfi-eşqim vətən idi. O məşuqə isə məni tiri-cəfasına hədəf etdi" (Ə.Hüseynzadə "Siyaseti-fürusət") deyən mübariz şairin ruhunu azadlıq duyğulu həmvətənləri yaşatdılar, onun ideyalarını davam etdirənlər şairin vətənində onun adına tikilən diri abidələr oldular.

Şamil VƏLİYEV
filologiya elmləri dokturu

ara-sıra itləqinə bəhəqqi-səza böylə kiçik, fəqət, məziyyət etibarilə böyük şeirlər yazmağa qeyrət etsələr, daha ziyadə xidmət edərlər". Şairin Azərbaycan poeziyasına gətirdiyi romantik pafos və lirik ifadə yenilikləri, xalq həyatı və taleyinə bağlılıq, gerçək hadisələrə münasibətdə inqilabi baxış milli şerimizin zənginləşməsində mühüm rol oynadı. Çünki bu şairin bədii ustalığı ilə birgə həm də onun ictimai hadisələrə vətəndaşlıq qeyrəti ilə yanaşmasından irəli gəlirdi. Bunun nəticəsidir ki, Azərbaycan vətəndaşlıq romantizminin qeyrətli nümayəndələrindən olan Səid Səlmasinin şeirləri ilə

Ölərsəm görmədən millətimdə
ümmid etdiyim feyzi,
Yazılsın səngi-qəbrimdə vətən məhzun,
mən məhzun —

söyləyən hürriyyətpərvər türk şairi Namiq Kamal yaradıcılığı arasında tipoloji oxşarlıq öz əksini her şeydən əvvəl azadlıq uğrunda mübarizə motivlərinin təhlilində tapır. Bütün əməli fəaliyyətini xalq azadlığına, onun arzu və istəklərinə xidmətdə şərəfli hesab edən Səid vətənin istiqlalı, xoşbəxt gələcəyinə böyük ümidlə baxırdı. Genc olmasına baxmayaraq "ədibi-yeganə", "natiqi-fərzanə", "şəhidi-rahi-hürriyyət", "şəhidi-azadi" kimi tanınan Səid Səlmasi şeirləri inqilab mücahidləri arasında geniş yayılaraq əməksəvər İran xalqının ictimai ağrılarından, xalqın iztirab və əzablarını görən şair qəlbinin inililərindən xəbər verirdi.

Vətənin və xalqın əsarətdə qalmasından fayda güdən, əsarət və zülm, acılıq və yoxsulluq törədiciləri — müstəbidlərin iç üzü, tutduğu mövqe Səid tərəfindən amansızcasına tənqid olunurdu. Onların islah yolu ilə deyil, ictimai inqilab yolu ilə həyat şəhnəsindən atılmasını söyləyən şair özünün ədəbi-siyasi platformasından çıxış edərək yazardı:

Amalımız, əfkarımız üqbali-vətəndir,
Sərhəd bizə, qələ bizə xaki-vətəndir.
Dəva günü yeksər görünən qanlı kəfəndir,

Çapdan çıxmışdır

Şair, nasir, publisist, filoloq və balaca oxucuların sevimli nəşri sayılan "Göyərçin" dərgisinin baş redaktoru Rafiq Yusifoğlunun kiçik yaşlı bədii ədəbiyyat mütəlliqləri ilə növbəti görüşü bu yaxınlarda çapdan çıxmış iki yeni kitabı vasitəsilə baş tutub. "Şirvannəşr" nəşriyyatı tərəfindən

Uşaqlar üçün

nəşr edilmiş "Dəniz səviyyəsi" adlı nəsr kitabını və "Daha uşaq deyiləm" poetik toplusunu müəllifin uşaqlar dünyasına, yeniyetmələrin maraq aləminə ədəbi səyahətini də saymaq mümkündür.

"Dəniz səviyyəsi" adlı nəsr əsərlərindən ibarət kitab "Nağıl dünyası", "Olmuş əhvalatlar", "Hekayələr", "Xatirə sovqatı", "Qəhqəhə", "Kiçik povestlər" kimi bölümlərə ayrılıb. Bölümlərin adlarından da bəlli olur ki, nağıl, publisistika, hekayə, xatirə yazısı, gülməcələr və kiçikhəcmli povest jannrda qələmə aldığı nəsr əsərlərində müəllif balaca oxucularda işıqlı duyğular, elə, obaya, doğma torpağa, Vətənə, insana bəslənən ülvi hisslər yaratmaq istəyir.

Oxunaqlı, sadə dildə yazılan balaca ədəbiyyatsevərlərin həvəsini tükədəcək qədər də uzun deyil, yığcam həcmdə qələmə alınan bu bədii əsərləri uşaq ədəbiyyatımızın maraqlı nümunələri də saymaq olar. Ən sadə həyat hadisəsi də Rafiq Yusifoğlunun ədəbi süzgəcindən keçəndən sonra oxunaqlı bədii nümunəyə çevrilir və istər kiçik yaşlı oxucularda, istərsə də genc ədəbiyyatsevərlərdə çağdaş milli bədii söz sənətinə maraq oyadır.

Bu fikri Rafiq Yusifoğlunun "Daha uşaq deyiləm" adlı yeni poetik toplusundaki şeirlər barədə də söylemək mümkündür. "Qızlar, balaca qızlar", "Dəcəllər", "Gülzanın, Gündüzün, Gürselin nağmələri" bölümlərindəki şeirlər həm balaca oxucular üçün maraqlıdır, həm də onların tez-tez sual atəşinə tutduqları valideynlərə — böyüklərə lazım olacaq:

— Atacan, bu qarpızdır?
— Yox, qızım, qlobusdur.
Bir bax, dənizlər, çaylar...
Qlobusun üstündə
Dünyamızın şəkli var...

Uşaq psixologiyasını, balacaların dünyagörüşünü gözəl bilən şair bəzən yumor hissiylə, bəzən nəsihətvəri notlarla, çox zaman isə oxunaqlı, sadə üslubda kiçik yaşlı oxucuların estetik baxışlarının formalaşmasına yardımçı olmağa çalışır, onları öz bilgilərini artırmağa həvəsləndirir.

Anacan, mənə gül dər, —
Dedi balaca solmaz.
— Hər gələn bir gül dərsə,
Qızım, parkda gül qalmaz...

Kitabdakı şeirlərin çoxunun poetik qəhrəmanı qızcığazlardır. Bu şeirləri milli Azərbaycan qız adlarının poetik sözlüyü də hesab etmək mümkündür. Müəllif adi həyat hadisələrinə də diqqət yetirəndə, onlara uşaq baxışları ilə nəzər salmağa çalışır ki, bu da "Daha uşaq deyiləm" poetik toplusunun balacalar tərəfindən həvəslə oxunacağına təminat verir.

A.Əbilov

"Azərbaycan" N-4

"Azərbaycan" jurnalının aprel sayı "İncilər..." bölümü ilə — İzzəddin Həsənoğlunun qəzəlləriylə açılır.

Xalq şairi Məmməd Arazın ömür-gün yoldaşı Gülxanım Fətəli qızının "Məmməd Arazlı günlərim" adlı xatirə yazısının sonu ilə oxucular "Xatirələr, duyğular" bölümündə tanış ola bilərlər.

Əlizadə Nurinin, Zirəddin Qafarlının, İbrahim İlyaslının, İsa Sevərin, İsgəndər Etibarın, Əli Aslanoğlunun və Nurməmməd Ağanın "Poeziya" bölümündəki yeni şeirləri ədəbiyyatsevərlərə təqdim edilir.

Elçin Hüseynbəylinin "On üçüncü Həvari — 141-ci Don Juan" roman-ekskursunun sonu isə "Nəsr" rubrikası altında oxucuların diqqətinə çatdırılır.

Dərginin yaz sayında bir neçə sənətkarın doğum günü qeyd olunub. Vaqif Yusifinin Fərman Kərimzadənin 70 yaşı ilə bağlı "Axırıncı aşırımı keçə bilmədi..." və tənqidçinin Vaqif Arzumanlının 60 yaşına yazdığı "Bu, alim ömrüdür", Südabə Ağabalayevanın Məmməd Orucun 60 yaşı ilə əlaqədar "Nəsir" məqalələri də "Azərbaycan"ın bu sayında işıq üzü görüb.

Şəhriyar Bədirxanoğlunun və Elşad Ərşadoğlunun yeni şeirləri və Şükufə Babayevanın "Qapı açılmadı" hekayəsi isə "Ədəbi gənclik" bölümündə gedib.

Yaşar Rzayevin "Şerimin hər sözü — xəncər tiyəsi" və Tofiq Hacıyevin "İdeya"sı bizə doğma olan "Yad adam" yazıları isə "Kitablar, rəylər" bölümündə çap olunub.

Daimi bölümlərdən olan "Kitab rəfi"ndə Əlişir Nəvainin "Mizanül-əvzan", Elçinin "Seçilmiş əsərləri"nin II cildi, Sadıq Şükürovun "Nəriman Həsənzadənin dramaturgiyası", Əlakbər Salahzadənin "Vaxt vadisi", Vaqif Yusifinin "Yaxşı ki, sən varsan...", Azər Abdullanın "Onlar qəmli idi...", "Qırmızı limuzin" (çağdaş Azərbaycan yazıçılarının hekayə antologiyası), Cavanşir Yusifinin "Filoloji fantaziya", Bədirxan Laçınlının "Təsəlli axtarma sözün içində" və Firuzə Məmmədlinin "Dilək yaxasına dönnəm yenidən" kitabları barədə yazılar verilib.

T.Mahmudov



"Yeni nəşrlər" N-3

"Yayım" Assosiasiyasının orqanı "Yeni nəşrlər"in növbəti 3-cü sayı nəşr olunmuşdur. Qarşısına nəşr olunan yeni kitablar bərəsində oxucuları məlumatlandırmaq və onlara bu ədəbiyyatların əldə edilməsinə yardım etmək məqsədi qoyan kataloq-jurnalın bu sayında da başqa sahələrlə yanaşı bədii ədəbiyyata, ədəbiyyatşünaslığa və incəsənət əsərlərinə də geniş yer ayrılmışdır.

Kataloq jurnalın bu sayında Yusif Vəzir Çəmənzəminlinin "Studentlər" romanı, Teymur Əhmədovun "Nəriman Nərimanov" kitabı, Afaq Məsudun tərtibatında "Dünyanın səsi" hekayələr almanaxı, Azər Abdullanın "Onlar qəmli idi..." müsahibələr toplusu, Vüsalə Musalının "XV-XVII əsr türk tezkirəçiliyi elmi araşdırması ilə tanış olmaq olar.

Bunlardan əlavə "Yeni nəşrlər"in son nəşrinin səhifələrində Minaxanım Təklilinin "Vüqarımı o dağlardan almışam", Gülxani Pənahın "Anar və folklor", Aşıq Valeh Həsənovun "Sabaha gedən yol", Lamiyə İsmayılın "Mən aktyoram", Bəhlul Behcət Əfəndinin "Sarı aşığın bayatıları" kitabları, Kamil Vəli Nərimanoğlu haqqında "Biblioqrafiya" və sair əsərlər haqqında məlumat almaq olar.



Allah rəhmət eləsin

Azərbaycan Yazıçılar Birliyi
Əflatun Cəfərliyə, anası

SƏLMİ ƏLİ qızının

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Repertuar

Azərbaycan Dövlət Milli Akademik Dram Teatrı

2 iyun
V.Hüqo
Kvazimoda

3 iyun
İ.İoseliani
Kaş araba aşmayaydı
Saat 19-da
Tel.: 494-48-40

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı

1 iyun
F.Əmirov
Min bir gecə
Saat 19-da
Tel.: 493-31-88

Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrı

3 iyun
S.Ələsgərov
Sevidj

İ.Məlikzadə
Kələkbazlar
Saat 19-da
Tel.: 493-88-37

S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı

2 iyun
Dj.Patrik
Strannaya missis

3 iyun
Elçin
Zvezda, lyubov i şampanskoye
Saat 19-da
Tel.: 493-00-63

Azərbaycan Dövlət Gənclər Teatrı

1 iyun
İ.Əfəndiyev
Məhv olmuş gündəliklər
4 iyun
R.Əlizadə
Dünyanın axırı
Saat 19-da
Tel.: 441-08-48

Biletlər teatrların kassalarında satılır

Baş redaktor: Ayaz Vəfalı

Redaksiya heyəti: Hüseyn Abbaszadə, Şirindil Alışanlı, Aqşin Babayev, Nizami Cəfərov, İsa Həbibbəyli, Hidayət, Nazim İbrahimov, Elçin İsgəndərzadə, Atababa İsmayıloğlu (məsul katib), Yusif Kərimov, İlham Qəhrəman, Əkbər Qoşalı, Bəkir Nəbiyev, Qəzənfər Paşayev, Ramiz Rövşən, Rübail, Sabir Rüstəmxanlı, Vaqif Səmədoğlu, Vasif Süleyman, Azər Turan (baş redaktor müavini), Bəxtiyar Vahabzadə

Təsisçilər: Azərbaycan Yazıçılar Birliyi, "Ədəbiyyat qəzeti"nin yaradıcı əməkdaşları

"Ədəbiyyat qəzeti"nin kompüter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Hesabımız: h/h YSM-324665 AZM-3201-01, ABB Yasamal filialı KOD 805562

Redaksiya şurası: Yavuz Akpinar (Türkiyə), Betti Bleyer (ABŞ), Əbdüllətif Bəndəroğlu (İraq), Harid Fedai (Şimali Kipr Türk Respublikası), Cavad Heyət (İran), Lüdmila Lavrova (Rusiya), İren Melikof (Fransa), Əhməd Şmide (Almaniya), Qulamrza Səbri Təbrizi (İngiltərə), İrfan Ülkü (Türkiyə)

Redaksiyanın ünvanı: Bakı - AZ 1073, Motbuat pr. 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, 9-cu mərtəbə

Telefonlar: baş redaktor 439-52-56, baş redaktor müavini 439-50-67, məsul katib 439-91-68, şöbələr 438-03-17. Faks: 438-85-70. E-MAIL: redaksiya@edebiyyatqazeti.com

Qiymeti: satış - 16 qəpik, abunə - 10 qəpik
Əlyazmalar geri qaytarılmır. Qəzet cümə günü çıxır.
Çapa imzalanmışdır: 31.05.2007 saat 2:30

Sahədənnamə N:186
İndeks 66800

Sifariş 2108
2094 nüsxə